# ORTA IXTISAS TƏHSILI: VƏZIFƏLƏR VƏ PERSPEKTIVLƏR

# KEYFIYYƏTLI KADR HAZIRLIĞI DIQQƏT MƏRKƏZINDƏDIR.

**Ağababa İbrahimov,**
**Astara Pedaqoji Kollecinin direktoru**



**“Ali məktəb müəllimi olmaq müəllimlər hazırlamaq yəni müəllimlər müəllimi olmaq ikiqat şərəfli və eyni zamanda ikiqat məsuliyyətli işdir”.**

**Heydər Əiiyev, Ümummilli lider**

***Son vaxtlar Azərbaycan Respublikasını inkişaf etdirmək, onun qüdrətini artırmaq, dünya dövlətləri sırasında layiqli yer tutmasına nail olmaq üçün bütün sahələrdə olduğu kimi təhsil sahəsində də yeni-yeni proqramlar və layihələr həyata keçirilir.***

Hal-hazırda təhsilimizin qarşısında maddi sərvətləri insan kapitalına çevirmək, ölkənin gələcək inkişafını təmin edə biləcək yüksək ixtisaslı, Vətənə sədaqətli kadrlar yetişdirmək kimi vəzifələr durur. Bu vəzifələrin yerinə yetirilməsi yolları, əsas strateji hədəfləri “Azərbaycan – 2020; gələcəyə baxış” İnkişaf Konsepsiyasında və “Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası”nda açıq-aydın göstərilib.

“Dövlət Strategiyası”nda təhsilalanın səviyyəsinin təhsilverənin səviyyəsindən asılı olduğu qeyd edilir. Orada təhsil müəssisələrində çalışanların peşəkarlıq səviyyəsinin yüksəldilməsi hədəf kimi qarşıya qoyulub. Məhz Azərbaycan Respublikası Təhsil Nazirliyinin 28 avqust 2017-ci il tarixli 261 nömrəli əmri ilə 2017-2018-ci dərs ilinin “Ümumi təhsildə keyfiyyət ili” elan edilməsi təhsilin keyfiyyətinin artırılması istiqamətində bütün fəaliyyətlərin birləşdilrilməsinə xidmət edir.

Bütün tipdən təhsil müəssisələrinin əsas vəzifəsi təhsilin keyfiyyətini yüksəltməkdən - keyfiyyətli təhsil verməkdən, bu gün sabahın tələblərinə cavab verən mütəxəssis yetişdirmək üçün əməli fəaliyyət göstərməkdən ibarətdir.

**Bu baxımdan Astara Pedaqoji Kollecinin qarşısında duran vəzifələr də yeni keyfiyyət qazanır: təhsilin keyfiyyətini artırmaq üçün təlim-tərbiyə prosesində müasir dövrün yeni texnologiyalarından geniş və səmərəli istifadə etmək, ixtisaslar üzrə təhsil və iqtisadi sahələrdə yetərincə çalışa bilən mütəxəssis hazırlamaq.**

Bu vəzifələri həyata keçirmək üçün kollecdə yüksək təhsil mühiti və hazırlıqlı müəllim kollektivi yaradılıb. Müəllimlərimizin hər birində yaradıcılıq və innovasiyalı çalışmaq səyi vardır.

Kollecdə təlim-tərbiyə, mədəni-kütləvi, quruculuq-abadlıq və idmanla bağlı müxtəlif tədbirlər həyata keçirilir. Təlim-tərbiyə işlərinin keyfiyyətini yaxşılaşdırmaq məqsədilə intizam möhkəmləndirilib, tələbələrin dərsə davamiyyətinə nəzarət gücləndirilib. Kollecdə keyfiyyətli orta ixtisaslı kadrların hazırlanmasına diqqət daha da artırılıb.

Hal-hazırda kollecdə 800-ə yaxın tələbə təhsil alır. Keçən tədris ilində 376 məzun kollecdə aldığı yüksək nəzəri və praktik hazırlıqla müstəqil həyata vəsiqə alıb. Onlardan bir çoxu ixtisasları üzrə müəllimlərin işə qəbulu üzrə müsabiqədə kifayət qədər bal toplayaraq pedaqoji fəaliyyətə başlayıblar.

Kollecə ümumi orta və tam orta təhsil bazasından 2018-2019-cu tədris ili üçün aşağıdakı ixtisaslar üzrə tələbə qəbulu nəzərdə tutulub:

**1. “Məktəbəqədər təlim və tərbiyə”. 2. “Texnologiya müəllimliyi”. 3. “Fiziki tərbiyə müəllimliyi”. 4. “Musiqi müəllimliyi”. 5. “Aqronomluq”. 6. “Meşə və meşə-park təsərrüfatı”. 7. “Mühasibat uçotu”. 8. “Turizm və onun təşkili”. 9. “Arxiv işi və kargüzarlıq”. 10. “Ətraf mühitin qorunması və təbii ehtiyatlardan səmərəli istifadə”. 11. “Bədən tərbiyəsi və idman”. 12. “Peşə təlimi”. 13. “Ailə və ev təhsili”.**

Göründüyü kimi, növbəti tədris ilindən mütəxəssis hazırlığı aparılan yeni ixtisaslar dövrün tələblərinə tam uyğundur. Bəzi ixtisaslar əhalinin tələbləri nəzərə alınmaqla plana salınıb. Çünki tərəfimizdən ölkənin əmək bazarındakı vəziyyət, işə götürənlərin peşə və ixtisaslara olan tələbatı diqqətlə izlənilir. Buna görə də ümumtəhsil məktəblərində məktəblilərin peşə meyil və maraqlarının müəyyənləşdirilməsində, onlara gələcək peşə və ixtisas seçmələrində maarifləndirmək zərurəti yaranıb. Bu məqsədlə biz məktəb rəhbərləri ilə sıx əlaqə saxlayırıq. Şagirdlərə ixtisas seçimi barədə məlumat verməkdən ötrü müəllimlərimizlə məktəblilərin görüşünü təşkil edirik. Eyni zamanda valideynlər də bu sahədə övladlarına düzgün ixtisas seçiminə yönəltmək barədə məsləhət verə bilərlər. Bu baxımdan valideynlərin məlumatlandırılması da vacibdir. Əksər valideynlər övladlarının ali təhsil almalarının tərəfdarıdırlar. Peşə-ixtisas təhsilinə o qədər də diqqət vermirlər. Fikrimizcə, ölkənin tələbatlarına uyğun peşə-ixtisasa yiyələnib işləmək daha məqsədəuyğundur.

Statistika göstərir ki, Azərbaycanda əmək bazarına daxil olan işçi qüvvəsinin böyük hissəsi orta ixtisas, ali təhsil və peşə təhsilindən kənardadır. Elə ixtisaslar vardır ki, hər 5-7 ildən bir əhəmiyyətini itirir. Bazarda həmin ixtisasa tələb olmur. Odur ki, tələbə qəbulu planı hazırlanarkən ixtisasın müasirliyi və stabilliyi, eləcə də tələbat nəzərə alınır. Bəzi ixtisaslara böyük maraq var. Bəziləri isə yeni olduğu üçün diqqətdən bir müddət kənarda qalır. İxtisaslar haqqında məlumatsızlıq onunla nəticələnir ki, bir neçə ixtisas daha çox yüklənir. Xidmət sahələri genişləndikcə peşə sahibi olan gənclərə ehtiyac durmadan artır. Azərbaycanda aqrar sektorun, turizmin inkişafı, xidmət sahələrinin genişləndirilməsi bu sahələrdə çalışacaq mütəxəssislərin qısa müddətdə hazırlanmasını tələb edir. Düşünürəm ki, gələcəkdə mütəxəssis hazırlığı məhz sosial sifariş əsasında həyata keçirilməlidir.

Təhsilalanlar cəmiyyət üçün təkcə mütəxəssis kimi deyil, həm də yararlı vətəndaş kimi hazırlanır. Onların hərtərəfli şəxsiyyət kimi formalaşmalarında müəllimin rolu əvəzsizdir. Təhsilin digər sahələrində olduğu kimi, orta ixtisas təhsilində də ən önəmli hədəf, əsas məsələ keyfiyyətin artırılmasıdır. Məhz bu baxımdan orta ixtisas təhsili sahəsində qabaqcıl təcrübə öyrənilir. Orta ixtisas təhsili ilə bağlı qanun layihəsinin hazırlanması da bu sahədə işləri yeni müstəviyə çıxara bilər.

Orta ixtisas təhsili müəssisələrində kredit sisteminin tətbiqi tələbələr üçün gözəl imkanlar açıb. Tələbələrin hüquqları daha çox qorunur. Xüsusən tələbələrə təqaüdün verilməsində dəyişikliklərin edilməsi təhsilin keyfiyyətinə nəzərəçarpacaq dərəcədə təsir göstərir. Təqaüdlər müəyyən edilərkən tələbənin dövlət hesabına və ya ödənişli təhsil alması rol oynamır. Əsas məsələ daha yüksək bal toplamaqdır. Tələbələrin təqaüdü semestr üzrə aldığı nəticələrdən asılı olur. Məhz maddi cəhətdən stimullaşdırma tələbələr arasında rəqabətin artmasına səbəb olmuşdur. Birinci yarımilin tədris göstəricilərinə görə əlaçılarımızın sayı keçən ilin müvafiq dövrünə nisbətən 25% artıb.

2016-2017-ci tədris ilinin birinci yarısı ilə 2017-2018-ci tədris ilinin müvafiq dövrünün müqayisəli rəqəmlərini sizin nəzərinizə çatdırırıq:

| **Tədris ili** | **Tələbə sayı** | **İştirak edənlər** | **Müv.qiy. alanlar** | **Əla-çılar** | **Yaxşı qiymət** | **Kafi qiy.** | **Qeyri kafi** | **Müvəf-fəq faizi** | **Keyfiy-yət faizi** |
|---|---|---|---|---|---|---|---|---|---|
| 2016-2017 | 874 | 822 | 449 | 1 | 44 | 404 | 373 | 55 | 5 |
| 2017-2018 | 805 | 779 | 706 | 25 | 139 | 542 | 73 | 91 | 21 |

Keçən tədris ilinə nisbətən bu tədris ilində düzgün idarəetmənin nəticəsində tədrisin keyfiyyətində, təlim-tərbiyə işlərinin təşkilində, ümumiyyitlə bütün sahələrdə inkişaf dinamikası aydın görünür.

Imtahan sessiyasının mövcud normativ sənədlər əsasında təşkili və keçirilməsi təmin olunub. İmtahan cədvəlləri vaxtında hazırlanıb və təsdiq edilib. Imtahanlar bütün qruplarda yazılı formada keçirilib. Imtahan olan fənlərdən tələbələrin imtahanaqədərki qiymətlərini əks etdirən cədvəllər "İmtahan guşəsi"ndə asılıb. Fənlər üzrə suallar müvafiq fənn komissiyalarında müzakirə olunub, imtahan biletləri təsdiq edilib. İmtahan sessiyası dövründə heç bir neqativ hal baş verməyib və qərargaha şikayət məzmunlu məlumat daxil olmayıb.

Orta ixtisas təhsilinin dövlət standartları əsasında 2017/2018-ci tədris ili ərəfəsində ixtisaslar üzrə yeni tədris planları hazırlanıb. Tələbə mobilliyi ilə əlaqədar mühüm işlər həyata keçirilib. Belə ki, Lənkəran Dövlət Humanitar Kolleci və Masallı Dövlət Regional Kolleci ilə bu sahədə əlaqələr yaradılıb.

Buraxılış kurs tələbələrinin rayonun ümumtəhsil məktəblərində təlimata uyğun şəkildə pedaqoji (istehsalat) təcrübəsinin təşkili və keçirilməsi təmin edilib. Şəhər 1, 2, 4 və 5 saylı tam orta məktəblərin, Lənkəran Regional Mədəniyyət və Turizm İdarəsinin Astara şöbəsinin, Astara Rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin Mərkəzi Kitabxanasının, Astara Rayon Musiqi Məktəbinin rəhbərliyi ilə müqavilələr bağlanılıb. Həmin müqavilələrə əsasən tədris planlarında nəzərdə tutulan müddətlərdə pedaqoji (istehsalat) təcrübəsi həyata keçirilir. Metodist müəllimlər təyin edilib və tələbələr qruplara bölünüblər. Tələbələrin davamiyyətinə daim nəzarət edilir, onların keyfiyyətli kadr kimi yetişmələri üçün müvafiq şərait yaradılıb. Təcrübə keçirilən məktəb və müəssisələrlə sıx əlaqə saxlanılır. Tələbələrin təcrübə sənədlərinin müasir tələblər səviyəsində hazırlamalarına xüsusi diqqət yetirilir.

Kollecdə gənclərin milli-mənəvi, əxlaqi və vətənpərvərlik tərbiyəsində mühüm rol oynayan mədəni-kütləvi tədbirlərin keçirilməsinə xüsusi diqqət yetirilir. Müəllim və tələbələrin iştirakı ilə həyətyanı sahədə müntəzəm olaraq səliqə-sahman işləri görülür, meyvə və bəzək ağacları, gül-çiçəklər əkilir, ağacların dibləri yumşaldılır və əhənglənir. Həyətdə tədris-təcrübə sahəsi ayrılıb və orada meyvə ağaclarının əkilməsinə başlanılıb.

Azərbaycan Respublikası Prezidenti yanında "Bilik" Fondu ilə kollec arasında sıx əlaqələr vardır. Fondun Astara rayon "Bilik" evinin iştirakı və kollec rəhbərliyinin moderatorluğu ilə akt zalında 20 Yanvar şəhidlərinə həsr olunmuş anım tədbiri keçirilib. Tədbirdə müəllimlər, tələbələr, ictimaiyyətin nümayəndələri iştirak ediblər.

"Astara" qəzetinin baş redaktoru Fəridə Ağazadə, Astara şəhərindəki Heydər Əliyev Mərkəzinin direktoru Kübra Səmədova, Azərtac Dövlət İnformasiya Agentliyinin cənub bölgəsi üzrə müxbiri Bağır Əliyev çıxış edərək yanvar şəhidlərinin xatirəsini ehtiramla yad edərək müstəqil Azərbaycanın haqq səsini batırmağa qalxan yadellilərin nifrət doğuran cinayət əməllərindən və xalqın mübarizəsindən söz açıblar.

Tədbirdə iştirak edən “Bilik” fondunun mətbuat katibi Ceyhun Musaoğlu 20 Yanvar barədə ətraflı məlumat verdi. Öz çıxışını təqdimat, slayd və videogörüntülər əsasında quran Ceyhun müəllim tələbələri də müzakirəyə cəlb etdi.

Kollecdə gənclərin asudə vaxtlarının səmərəli təşkilinə xüsusi diqqət yetirilir, onların fiziki, mənəvi və hərbi vətənpərvərlik ruhunda tərbiyəsi ilə bağlı mütəmadi olaraq idman tədbirləri keçirilir. Tələbələrdən ibarət komandamız keçən il Şirvan şəhərində keçirilən futbol üzrə Respublika birinciliyində 1/8 finala qədər yüksəlib. Kollecin tələbəsi Rəşad Məmmədov Rusiya Federasiyasının Mahaçqala şəhərində “Çempion” klubunun açıq çempionatında iştirak edərək diploma layiq görülüb. “Təhsil” Respublika İdman Mərkəzinin TAEKVONDO idman növü ÜZRƏ BAŞ MƏŞQÇİSİ-müəllimi, əməkdar MƏŞQÇİ RƏŞAD MƏMMƏDOVUN UĞURLARI BİZİ DAİM SEVİNDİRİR. Digər tələbəmiz Nurəli Məmmədov isə Su İdman Sarayında üzgüçülük üzrə baş məşqçidir. Güləş üzrə yeniyetmələrin Bakı şəhərində açıq birinciliyində kollecin tələbəsi Tərlan Səlimli müvəffəqiyyətlə çıxış edib. Bu barədə faktları daha da artırmaq olar. Tələbələrimiz Astara rayon gənclər və idman idarəsi tərəfindən keçirilən bütün yarışlarda həvəslə qüvvələrini sınayırlar. Bayram və xüsusi günlərə həsr olunan kollecdaxili müxtəlif idman yarışlarında da tələbələrimiz fəal iştirak edirlər. Asudə vaxtlarında tələbələr kollecin həyətində olan idman meydançalarında və trenajor zalında həvəslə məşğul olurlar.

Kollecdə vətəndaşların qəbuluna, ərizə və şikayətlərinə həssaslıqla yanaşılır və onların müraciəti operativ olaraq obyektiv həll edilir.

Kollecin müəllim və işçi kollektivi, tələbələr böyük ruh yüksəkliyi ilə aprelin 11-nə təyin olunmuş prezident seçkilərinə hazırlaşırlar. Bu məqsədlə kollecdə Astara rayon idman və gənclər idarəsi və rayon dairə seçki komissiyası ilə birgə “Mən ilk dəfə səs verirəm” mövsuzunda seminar keçirilib. Seminarda gənclərə seçki prosesi barədə ətraflı məlumat verilib. Seminarda “Konstitusiyada seçki hüququnun əsasları”, “Seçki məcəlləsində əsas terminlər”, “Seçki hüququ və onun əsas növləri”, “Seçki sistemi”, “Seçki hüququnun əsas prinsipləri”, “Seçki prosesi və onun mərhələləri” mövzularında çıxışlar dinlənilib. Tədbirdə gəncləri maraqlandıran suallar cavablandırılıb və onlara seçkilərlə bağlı maarifləndirici bukletlər paylanılıb.

**Təhsil cəmiyyətin strateji əhəmiyyətli ən üstün sahəsidir və cəmiyyətin əsas atributlarından biridir. Təhsilin inkişafı cəmiyyətin inkişafı ilə bağlıdır. Cəmiyyətdə baş verən inkişaf yenilikləri özünü bu və ya digər dərəcədə göstərməklə həmin cəmiyyəti xarakterizə edir. Cəmiyyətin inkişafı təhsilə, təhsilin inkişafı isə cəmiyyətə birbaşa təsir göstərir. Odur ki, yeniləşən cəmiyyət yeniləşən təhsil tələb edir. Astara Pedaqoji Kollecinin kollektivi də bu yeniləşən təhsil sahəsində xalqımızı öz yeni-yeni töhfələri ilə sevindirməyə çalışacaqdır.**